# Məgər Allah sizə sədəqə edəcək şey verməmişdirmi?! Həqiqətən, hər bir təsbih (sübhənallah kəlməsi) sədəqədir, hər bir təkbir (Allahu Əkbər kəlməsi) sədəqədir, hər bir təhmid (Əlhəmdulilləh kəlməsi) sədəqədir, hər bir təhlil ("Lə iləhə illəllah" kəlməsi) sədəqədir, yaxşılığı əmr etmək sədəqədir, pis işlərdən çəkindirmək sədəqədir, habelə, sizdən birinizin (öz zövcəsi ilə) yaxınlıq etməsi də sədəqədir

Əbu Zər (Allah ondan razı olsun) belə demişdir: Peyğəmbərin (sallallahu aleyhi va səlləm) səhabələrindən bir dəstə adam ona bele dedi: “Ey Allahın Rəsulu, var-dövlət sahibləri bizdən çox savab qazanırlar. Onlar bizim kimi namaz qılır, bizim kimi oruc tutur və üstəlik mallarının artığını sədəqə verirlər”. Peyğəmbər (sallallahu aleyhi va səlləm) dedi: "Məgər Allah sizə sədəqə edəcək şey verməmişdirmi?! Həqiqətən, hər bir təsbih (sübhənallah kəlməsi) sədəqədir, hər bir təkbir (Allahu Əkbər kəlməsi) sədəqədir, hər bir təhmid (Əlhəmdulilləh kəlməsi) sədəqədir, hər bir təhlil ("Lə iləhə illəllah" kəlməsi) sədəqədir, yaxşılığı əmr etmək sədəqədir, pis işlərdən çəkindirmək sədəqədir, habelə, sizdən birinizin (öz zövcəsi ilə) yaxınlıq etməsi də sədəqədir". Səhabələr soruşdular: “Ey Allahın Rəsulu! Birimiz (öz zövcəsi ilə) yaxınlıq edir və buna görə savabmı qazanır?” Peyğəmbər (sallallahu aleyhi va səlləm) belə dedi: "Məgər haram yolla yaxınlıq etdikdə, buna görə günah qazanmır?! Eləcə də, halalı ilə yaxınlıq etdikdə, savab qazanır".
[Səhih] [Muslim rəvayət etdi]

Bəzi yoxsul səhabələr Peyğəmbərə (sallallahu aleyhi va səlləm) öz vəziyyətlərindən, kasıblıqlarından və zəngin müsəlman qardaşları kimi çoxlu savablar qazanmaq və onlar kimi xeyir işlər görmək üçün sədəqə verə bilmədiklərindən şikayət etdilər. Çünki onlar bizim kimi namaz qılır, bizim kimi oruc tutur və mallarının artıqlarından sədəqə verirlər, biz isə sədəqə verə bilmirik. Bu zaman Peyğəmbər (sallallahu aleyhi va səlləm) onlara verə biləcəkləri sədəqə növlərini göstərdi və belə buyurdu: Məgər Allah sizə özünüz üçün sədəqə verəcəyiniz şeylər etmədimi?! Hər bir: (Sübhənallah) deməyiniz sizin üçün bir sədəqədir. Hər bir: (Allahu Əkbər) deməyiniz sizin üçün bir sədəqədir. Hər bir: (Əlhəmdulilləh) deməyiniz sizin üçün bir sədəqədir. Hər bir: (Lə iləhə illəllah) deməyiniz sizin üçün bir sədəqədir. Yaxşılığı əmr etməyiniz, sizin üçün bir sədəqədir. Pislikdən çəkindirməyiniz, sizin üçün bir sədəqədir. Hətta sizdən birinizin öz zövcəsi ilə yaxınlıq etməsi də sədəqədir. Səhabələr Peyğəmbərin (sallallahu aleyhi va səlləm) sözündən təəccüblənərək belə dedilər: Ey Allahın Rəsulu! Birimiz

öz zövcəsi ilə yaxınlıq edir və buna görə savabmı qazanır? Peyğəmbər (sallallahu aleyhi va səlləm) onlara belə cavab verdi: Məgər o, zina və ya digər haram yolla yaxınlıq etdikdə, buna görə günah qazanmır?! Eləcə də, halalı ilə yaxınlıq etdikdə, savab qazanır.

https://sunnah.global/hadeeth/az/show/4558